

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 128 (21.789)

11 iyul 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İstanbulun ev sahibliyi etdiyi 22-ci Dünya Neft Konqresi çərçivəsində iyulun 10-da prezidentlərin tədbiri keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

* * *

İyulun 10-da İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresi işə başlamazdan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Prezidenti Aleksandr Vuçiç, Türkiyənin Baş naziri Binəli Yıldırım, Albaniyanın Baş naziri Edi Rama, Bolqarıstanın Baş naziri Boyko Borisov, Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak və Dünya Neft Şurasının prezidenti Cozef Tot arasında qısa söhbət olub.

* * *

İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İstanbulda ABŞ-ın dövlət katibi Reks Tillerson ilə görüşü olub.



## “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Əsasnaməsi”nin təsdiq edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

2. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya haqqında Əsasnamənin, Komissiyanın strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 28 aprel tarixli 119-III FR nömrəli Fərmanının 1-ci hissəsi ləğv edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 iyul 2017-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 7 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya haqqında

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya (bundan sonra – Komissiya) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli 118-III FR nömrəli Fərmanı ilə yaradılmışdır.

2. Komissiya dövlət qulluğu sahəsində qəbul edilmiş normativ hüquqi aktların Naxçıvan Muxtar Respublikasında tətbiqini təşkil edən, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, yerləşdirilməsi, dövlət qulluqçularının etik davranış qaydalarına əməl olunmasına nəzarət edilməsi, dövlət qulluqçularının əlavə təhsili və sosial müdafiəsi sahəsində, həmçinin dövlət qulluğu ilə bağlı digər məsələlər barədə qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

3. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

4. Komissiya bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyalarını yerinə yetirərkən və hüquqları həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

5. Komissiya bilavasitə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə tabedir və onun qarşısında hesabat verir.

6. Komissiya müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara, blanklara və bank idarələrində müvafiq hesablara malikdir.

7. Komissiyanın saxlanma xərcləri və fəaliyyəti imtahanların təşkili və keçirilməsindən əldə olunan vəsaitlər, habelə qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

8. Komissiya Naxçıvan şəhərində yerləşir.

### II. Komissiyanın fəaliyyət istiqamətləri

9. Komissiyanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

9.1. dövlət qulluğu sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

9.2. dövlət qulluğunun kadr təminatının proqnozlaşdırılması sahəsində təkliflər hazırlayır;

9.3. dövlət qulluğu və kadr məsələləri sahəsində fəaliyyətin təkmilləşdirilməsi üçün tələb olunan normativ hüquqi aktların layihələrini hazırlayır;

9.4. dövlət qulluqçularının peşə hazırlığı və əlavə təhsili sahəsində dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, bu sahədə işlərin vəziyyətini təhlil edir və təkliflər hazırlayır;

9.5. dövlət qulluqçularının reyestrini təkmilləşdirir və ondan səmərəli istifadə olunmasını təmin edir;

9.6. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanları keçirir və şəffaflığı təmin edir;

9.7. müvafiq sahədə kadr hazırlığını təmin edir, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görür;

9.8. prokurorluq, daxili işlər, ədliyyə, fövqəladə hallar, miqrasiya, gömrük, vergi və dövlət qulluğunun xüsusi növünə aid olan digər orqanlarda vətəndaşların qulluğa qəbul edilməsi üçün elan olunmuş müsabiqələrin test imtahanlarını keçirir;

9.9. dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasına qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət edir və etik davranış qaydaları haqqında qanunvericiliyin tətbiqi ilə bağlı məsələləri əlaqələndirir;

9.10. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

### III. Komissiyanın vəzifələri

10. Komissiya bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

10.1. dövlət qulluğunun təkmilləşdirilməsinə dair proqramların və digər sənədlərin hazırlanmasını və həyata keçirilməsini təşkil etmək;

10.2. dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət etmək;

10.3. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanından keçənlərə sertifikat vermək;

10.4. dövlət qulluğu üzrə verilən sertifikatların uçotunu aparmaq;

10.5. müsahibə elan edilməsi nəzərdə tutulan vakant dövlət qulluğu vəzifələrinə dair müsahibə məlumatlarının (müvafiq vəzifə üzrə vəzifə təlimatının, müsahibə proqramlarının, müsahibə elanının, müsahibənin keçirilmə qrafikinin, keçirilmiş müsahibənin nəticələrinin) internet saytında yerləşdirilməsini təmin etmək;

10.6. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yaradılmış müsahibə komissiyasının tərkibinə nümayəndələr təqdim etmək;

10.7. dövlət orqanlarının nümayəndələri və müstəqil ekspertlər üçün müsahibənin aparılması üzrə təlimlər təşkil etmək;

10.8. dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanları, inzibati vəzifələrin tutulması üzrə müsahibələrlə bağlı xüsusi halların araşdırılması üçün komissiyalar yaratmaq;

10.9. dövlət qulluqçularından və digər şəxslərdən “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarının pozulması ilə bağlı şikayətlər və məlumatlar qəbul etmək, araşdırmalar aparmaq, belə halların aradan qaldırılması üçün dövlət orqanlarına və vəzifəli şəxslərə təqdimat vermək və yol verilmiş pozuntu halları barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat vermək;

10.10. dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətini öyrənmək və bu barədə hesabat hazırlamaq;

10.11. dövlət orqanlarının dövlət qulluğu ilə bağlı qanunsuz aktlarının ləğv edilməsinə dair təkliflər vermək;

10.12. daxil olmuş materiallarda hüquqpozmaların əlamətləri olduqda, həmin materialları yoxlanılmaq üçün müvafiq orqanlara göndərmək;

10.13. dövlət qulluğu və dövlət qulluqçularının etik davranış qaydaları barədə maarifləndirmə işi aparmaq;

10.14. dövlət qulluqçularının reyestrini aparmaq və dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi barədə məlumatların həmin reyestrə daxil edilməsini təmin etmək;

10.15. müvafiq sahədə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin əlavə təhsili üçün tədbirlər görmək;

10.16. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini təmin etmək;

10.17. Komissiyanın fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

10.18. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

### IV. Komissiyanın hüquqları

11. Komissiyanın öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

11.1. fəaliyyət istiqamətləri üzrə normativ hüquqi aktların layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

11.2. dövlət qulluğunun təkmilləşdirilməsinə dair təkliflər vermək;

Ardı 2-ci səhifədə

11.3. öz vəzifə və funksiyalarının yerinə yetirilməsi üçün zəruri olan məlumatları dövlət orqanlarından, təşkilatlardan, vəzifəli şəxslərdən sorğu etmək və almaq;

11.4. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

11.5. dövlət orqanlarından vakant olan dövlət qulluğu vəzifələrinin siyahılarını, barəsində müsahibə elan edilməsi nəzərdə tutulan vakant dövlət qulluğu vəzifələrinə dair müsahibə məlumatlarını və vakant vəzifəyə təyinata dair məlumatı tələb etmək;

11.6. dövlət qulluğunun inkişafına yönəlmiş dövlət və beynəlxalq proqramların həyata keçirilməsində iştirak etmək;

11.7. konfranslar, müşavirələr və seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

11.8. muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və müstəqil ekspertlərlə əməkdaşlıq etmək;

11.9. ilk dəfə dövlət qulluğuna qəbul olan şəxslər üçün dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi, etik davranış, korrupsiyaya qarşı mübarizə və sair məsələlər üzrə təlim kursları təşkil etmək;

11.10. daxil olmuş şikayətlər və məlumatlardan irəli gələn məsələlərin həlli üzrə təkliflər, tövsiyələr və təqdimatlar vermək;

11.11. müxtəlif qurumların və şəxslərin müraciəti əsasında tələb olunan sahədə şəxslərin bilik səviyyəsini qiymətləndirmək;

11.12. test bankının formalaşdırılması, proqram təminatının yaradılması və təkmilləşdirilməsi məqsədi ilə işçi qruplar və ekspert şuraları təşkil etmək, yaradılmış test bankının mütəmadi təftişini aparmaq;

11.13. ödənişli əsaslarla sınaq imtahanları keçirmək və müqavilə əsasında hazırlıq kursları, təlimlər təşkil etmək;

11.14. test imtahanlarının məzmunu və mahiyyəti haqqında müxtəlif metodik vəsaitlər və test topluları hazırlamaq və dərc etmək;

11.15. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**V. Komissiyanın fəaliyyətinin təşkili**

12. Komissiyanın fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr rəhbərlik edir.

13. Komissiyanın sədri Komissiyaya həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

14. Komissiyanın strukturu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müəyyən edilir.

15. Komissiya sədrinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır.

16. Komissiyanın sədri:

16.1. Komissiyanın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

16.2. Komissiyanın fəaliyyəti barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə hesabat verir;

16.3. digər dövlət orqanları ilə Komissiyanın qarşılıqlı fəaliyyətini təmin edir, həmin orqanlarda, həmçinin məhkəmələrdə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Komissiyanı təmsil edir;

16.4. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Komissiyanın aparatının strukturunu, ştat cədvəlini və onların xərclər smetasını təsdiq edir;

16.5. Komissiya sədrinin müavininin vəzifə səlahiyyətlərini müəyyən edir;

16.6. Komissiyanın işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərini görür;

16.7. Komissiyanın işçiləri üçün icrası məcburi olan əmrlər və göstərişlər verir;

16.8. öz səlahiyyətləri daxilində beynəlxalq əməkdaşlıqda iştirak edir, müvafiq beynəlxalq təşkilatlarda və beynəlxalq tədbirlərdə Naxçıvan Muxtar Respublikasını təmsil edir;

16.9. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

17. Komissiyada Komissiyanın sədrindən (Kollegiyanın sədri), onun müavinindən, Komissiyanın digər rəhbər işçilərindən və dövlət qulluğu sahəsi üzrə mütəxəssislərdən ibarət Kollegiya yaradılır.

18. Kollegiyanın üzvlərinin sayı və tərkibi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilir.

19. Kollegiya öz iclaslarında Komissiyanın fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir.

20. Kollegiyanın iclasları Kollegiya üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

21. Kollegiyanın qərarları onun üzvlərinin adi səs çoxluğu ilə qəbul edilir. Kollegiyanın qərarları protokollarla rəsmiləşdirilir və bir qayda olaraq, sədrin əmrləri ilə həyata keçirilir. Səslər bərabər bölündükdə Kollegiya sədrinin səsi həlledici hesab edilir.

22. Zəruri hallarda Kollegiyanın iclaslarında iştirak etmək üçün müzakirə olunan məsələlərlə bilavasitə əlaqəli olan dövlət və digər orqanların mütəxəssisləri dəvət edilə bilərlər.

# NAXÇIVAN: bu torpağın bu günü də, dünəni də qürur doğurur



*Əvvəli qəzetin 5 iyul 2017-ci il tarixli sayında*

***Sədərək rayonu***

Yolumuz Sədərək rayonunadır, illərdən bəri düşmən qarşısında alınmaz qalaya, keçilməz səddə çevrilən Sədərəyə. Qaraqoyunlu və Ağqoyunlu dönəmində Çuxursəd əyalətinin səkkiz hakimliyindən biri Sədərək olub, XVI əsr mənbələrində sultanlıq kimi təqdim olunur. Fransız səyyahı Jan Şarden yazır ki, Sədərək adlı şəhərciyin yanından keçdik, mahalın sultanı da bu şəhərcikdə yaşayır.

Şarden ciddi bir adam idi. Ömrünü bir neçə il İranda və Azərbaycanda keçirmişdi, bu yerlərə də yaxşı bələd idi. Ermənilərdən bəhs edərkən bildirir ki, onlar "çox yoxsul, fəlakətli, nadan və cahil bir millətdir". Bəli, o vaxtlar Naxçıvanın 11 mahalından biri, həqiqətən, Sədərək idi.

Sədərək şimalda və şərqdə dağlıq, Arazboyu hissədə tirə və yüksəkliklərlə ayrılan maili düzənlikdən ibarətdir. Şimal-qərbdən Sarıbulaq dağının cənub-şərq ətəkləri ilə sərhədlənib Ağrı düzü ilə birləşir, Ucubiz, Əjdəkan, Tejkar, Vəlidağ və Saraclı dağları təbii sipər kimi Sədərəyi əhatəyə alıb.

Ümummilli lider Heydər Əliyev hələ 1978-ci ilin oktyabrında Naxçıvana səfər edərkən, Sədərək kəndi ilə Ermənistan arasında nümunəvi yeni qəsəbə salınmasını tövsiyə etmişdi. 1980-ci ildə salınmasına başlanan həmin qəsəbə barədə danışarkən ulu öndər sonralar qeyd edirdi ki, o vaxtlar ermənilər yavaş-yavaş baş qaldırır, torpaqlarımıza iddia edirdilər, ona görə də qəsəbənin məhz həmin yerdə salınmasını tövsiyə etdim.

Ermənilər 1990-1993-cü illərdə 14 dəfə Sədərəyə hücum etsələr də, hər dəfə geriyə oturdulmuş və ciddi itkilərə məruz qalmışlar. O vaxtlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyev Sədərəyi "Qeyrət qalası" adlandıraraq demişdir: "Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq Sədərəyin üzərinə düşmüşdür. Sədərəkdə vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub".



Ulu öndər Sədərəyi çiçəklənən, yüksək rifaha malik yaşayış məntəqəsi kimi görmək istəyirdi. Bu gün düşmən postundan, cəbhə xəttindən 200-250 metr aralıda olan Heydərabad qəsəbəsini, Sədərəyi görəndə, gözlərimizə inanmadıq. Bu qəsəbə düşmən üçün gözdağına çevrilib. Ətrafında gözəl bağ-bağça salınmış, abad evlər, muzey, park, mədəniyyət evi, enli asfalt küçələr ox olub düşmənin bağrına sancılır.

Hərbi hissədə əsgər və zabitlərimizlə görüş yaddaşımızda silinməz izlər qoydu. Bir daha əmin olduq ki, Azərbaycan Ordusu Ali Baş Komandan cənab İlham Əliyevin əmrinə müntəzirdir. Ən müasir silah-sursatla yaxşı təchiz edilmiş Silahlı Qüvvələrimiz torpaqlarımızı işğaldan azad etməyə hər an hazırdır. Yüksək dəqiqliyə, böyük dağıdıcı gücə malik silahlar düşmənə rahatlıq vermir, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu düşmənin qorxulu röyasına çevrilib. Düşmən qısa vaxt ərzində sarsıdıcı zərbə ilə birdəfəlik susdurula bilər.




KİVDF-in icraçı direktoru Vüqar Səfərli, Milli Məclisin deputatı Aqil Abbas əsgər və zabitlər qarşısında çıxış edərək, Vətənin onlara güvəndiyini, torpaqlarımızın işğaldan azad ediləcəyi günün yaxında olduğunu vurğuladılar, ordumuza qələbə sevinci arzuladılar.

Cəbhə xəttində dağın zirvəsinə qalxıb postda dayanan əsgərlərimizlə də görüşürük. Hər biri qorxubilməz igiddir. İlk həmlə ilə düşmənə ağır zərbə vuracaqları şübhə doğurmur. "Ötən hər gün bizi qələbəyə yaxınlaşdırır",– deyir əsgərlərimiz. Ordumuzun gücünə, qüdrətinə daha yaxından bələd olduqca, qəlbimiz qürurla döyünür. Sərhəd xəttində güclü, qüdrətli bir ordu dayanıb. Belə cəsur oğulları olan Vətən basılmaz!

***Şərur***

Şərur rayonunda baş çəkdiyimiz ilk ünvan ikimərtəbəli tam orta məktəb oldu. Düzünü desəm, qarşısında dayandığımız əzəmətli binanın məktəb olduğuna inanmaq çətin idi. Amma üzərindəki lövhə şübhəmizə son qoydu. Giriş qapısının hər iki tərəfindəki qoşa sütunların arasından keçib dördmərtəbəli gözəl binanın içərisinə daxil oluruq. Binanın xarici görünüşünün yaratdığı xoş təəssürat anındaca birə-beş qat artır. Məktəb ən müasir tədris standartlarına cavab verir. 1020 şagird yerlik məktəbdə bir qismi elektron lövhəli olmaqla, 50 sinif otağı, 2 müəllimlər otağı, 4 kompüter otağı, 2 şahmat otağı, tibb otağı, idman zalı, idman qurğuları, fənn laboratoriyaları, hərbi kabinə, yeməkxana lazımi avadanlıq və tədris vasitələri ilə təchiz olunub. Kitabxanada 9 min nüsxədən çox dərslik, 10 min nüsxədən artıq bədii ədəbiyyat toplanıb. Sinif otaqları və məktəbin qazandığı uğurlarla tanış olduqda bizdə belə bir təəssürat yarandı ki, muxtar respublikada gələcək nəslin təlim-tərbiyəsinə xüsusi diqqət yetirilir. Hər bir şagirdə onun şəxsi keyfiyyətlərindən, maraq

*Ardı 3-cü səhifədə*



*Əvvəli 2-ci səhifədə*

dairəsindən asılı olaraq fərdi yanaşma sərgilənir. Nəticə göz qabağındadır: burada yüksək təhsilli, geniş dünyagörüşlü gənc nəslin təlim-tərbiyəsi bütün məktəblər üçün örnək ola bilər.

Məktəbin həyəti xüsusi dizaynı, salınan yaşıllıq və səliqə-sahmanı ilə göz oxşayır.

Məktəbin binasından çıxıb yan tərəfdəki daha bir gözəl binaya doğru gedirik. Bura Şərur Texniki-Peşə və Sürücülük Məktəb Kompleksidir.

Bələdçimiz Ramal Məmişov məlumat verir ki, son 10 ildə muxtar respublikada 142 məktəb binası istifadəyə verilib. Dərslərin daha yüksək təşkili məqsədilə ümumtəhsil məktəblərində 600 elektron lövhə quraşdırılıb, hər 12 şagirdə 1 kompüter düşür. Bütün təhsil ocaqları dərslik və dərs ləvazimatları ilə təmin olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2014-cü il sentyabrın 14-də Şərur Texniki-Peşə və Sürücülük Məktəb Kompleksinin açılış mərasimində iştirak etmişdir.

Peşə məktəbi tədris korpusu və yataqxana binasından ibarətdir. Dördmərtəbəli tədris korpusu 360 şagird üçün nəzərdə tutulub, burada 17 sinif otağı, 4 laboratoriya, 5 emalatxana, şahmat, kompüter otaqları, hərbi kabinə, tibb məntəqəsi, idman zalı, yardımçı otaqlar var. Məktəbdə 11 ixtisas üzrə kadr hazırlığı aparılır. Sürücülük peşəsinin təcrübədə yaxşı mənimsənilməsi məqsədilə üç avtotrenajor quraşdırılıb. Mühərrik gücünü, hava və yol şəraitlərini seçmək imkanı yaradan avtotrenajorlar sürücülük peşəsini öyrənmək üçün ideal tədris vasitəsidir.

Məktəbin 83 yerlik yataqxanası digər rayonlardan peşə öyrənməyə gələn müdavimlər üçün ideal şəraitə malikdir.

Şərur Olimpiya-İdman Kompleksi, gələn qonaqlar üçün nəzərdə tutulan 60 yerlik mehmanxana, Fizika-Riyaziyyat Təmayüllü Lisey və Şahtaxtı Gömrük İdarəsi ilə tanışlıq bizdə xoş təəssürat doğurdu.

### *Ordubad*

Ordubadla tanışlıq Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi Qeysəriyyədən başladı. 540 kvadratmetr sahəsi olan möhtəşəm Qeysəriyyə abidəsi eni və uzunluğu 10 metr olan mərkəzi səkkizbucaqlı zaldan, onun üzərindəki günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd dayaqdan, dayaqlarla kənar divar taxçaları arasında 3,4 metr enində keçidlərdən ibarətdir. Kənar divar taxçaları çatmatağ konstruksiyalıdır. Keçidlərin tavanı 16 kiçik günbəzlə qapanıb.

Qeysəriyyə daş-qaş, ləl-cəvahirat satışı üçün nəzərdə tutulan Şərq bazarıdır. Mürəkkəb memarlıq quruluşuna malik bu nadir tarixi abidə XVII əsrdə çiy kərpicdən inşa edilib. Bütün dünyada Qeysəriyyənin yalnız iki oxşarı var: biri Təbrizdə, digəri Səmərqənddə.

Sonrakı dövrlərdə Qeysəriyyədən zorxana kimi istifadə olunub. Qalib gələn pəhləvan mükafat kimi hücrədə əyləşən xandan bir kisə qızıl alırmış.

1978-ci ildən Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi Qeysəriyyədə yerləşir. Abidə 2011-ci ildə muxtar respublika rəhbərinin xüsusi nəzarəti və qayğısı nəticəsində bərpa olunub.



Qeysəriyyə, əsasən, 3 cəhəti ilə yaddaşımıza yazıldı: möhtəşəm və nadir tarixi abidə kimi, çox zəngin muzey kimi, bir də bu muzeyin direktoru, vətənpərvər ziyalı Vilayət Bağırovun tariximiz, mədəniyyətimizlə bağlı ətraflı məlumatı ilə.

Dünya şöhrətli alim Yusif Məmmədəliyevin, görkəmli yazıçı Məmməd Səid Ordubadinin, böyük maarifçi, şair Məhəmməd Tağı Sidqinin ev-muzeyləri ilə tanışlıq Ordubad haqqında dolğun təəssürat yaratdı.

### *Tarixi keçmişimizə və abidələrə böyük qayğı nümunəsi*

Naxçıvan ərazisində aşkar edilən zəngin maddi-mədəniyyət nümunələri bu torpağın ilk insan məskənlərindən biri olduğunu sübut edir. İnsanlar qədim Daş dövründən başlayaraq, burada məskunlaşmış və nadir maddi-mədəniyyət nümunələri yaradaraq bu günümüzə zəngin irs qoymuşlar. İlk insanların sığınacaq yeri olmuş qədim mağaralar, yaşayış düşərgələri, erkən qayaüstü rəsmlər, qalalar, daş heykəllər... Naxçıvanın minilliklərin dərin qatlarında qalmış tarixinə işıq tutan dəyərli maddi sübutlardır. Qazma, Əshabi-Kəhf, Kilit mağaraları bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Oğlanqala, Çalxanqala, Govurqala ilkin şəhər məntəqələri kimi tarixi keçmişimizin qədimliyinə və zənginliyinə dəlalət edir. 5-6 min ildən artıq yaşı olan Gəmiqaya qayaüstü rəsmləri kompozisiya və süjet baxımından müxtəlifdir. İnsan rəsmləri tək və kollektiv səhnələrdə, zoomorfik və fantastik elementlərlə təsvir edilib. Ov səhnələrində ovçular ox və kamanla silahlanıb. Öküz qoşulmuş araba təsviri bu ərazidə təsərrüfat sahələrinin yüksək inkişaf etdiyini göstərir.

Piktoqrafik rəmzi təsvir və işarələr, dairə, dördbucaqlı, üçbucaqlı kimi həndəsi fiqurlar bədii və elmi təfəkkürümüzün formalaşmasının ilkin mərhələləri haqqında mühüm məlumatlar verir. Qısaca desək, Gəmiqaya misilsiz yerüstü muzey təsiri bağışlayır.

Naxçıvanda qədim tariximizin, memarlıq abidələrimizin, xalqın etnoqrafik, estetik-fəlsəfi baxışlarının daşıyıcıları olan maddi-mədəniyyət nümunələrinin öyrənilməsinə, tədqiq olunmasına və mühafizəsinə xüsusi diqqət yetirilir. Son 20 ildə bu mövzularda çap olunmuş kitab və monoqrafiyaların sayı yüzlərlədir. Bu sahədə görülən işlərə, aparılan tədqiqatlara Muxtar Respublika Ali Məclisi Sədrinin hərtərəfli dəstək verməsi təqdirəlayiqdir.



Azərbaycan milli memarlığının möhtəşəm abidəsi Möminə xatın türbəsi kompozisiyasına, incə, zərif elementlərinə, bitkin memarlıq həllinə görə Şərq memarlığının parlaq nümunəsidir. Bu abidə konservasiya olunub, Qarabağlar kompleksində isə təmir, bərpa və konservasiya işləri davam etdirilir. Əshabi-Kəhf, İmamzadə, Came məscidi, Zaviyə mədrəsəsi, Yusif Küseyir oğlu türbəsi, Xan sarayı, Naxçıvanqala, Əlincə qalası, Culfadakı Xanəgah kompleksi yüksək sənətkarlıqla, zövqlə bərpa olunmuşdur.





Aşkar edilən maddi-mədəniyyət nümunələrinin tədqiqi və öyrənilməsi, muzeylərdə cəmləşdirilməsi, sərgilənməsi, Açıq Səma Altında Muzey yaradılması Naxçıvanda qədim tariximizə, arxeologiya, etnoqrafiya, toponimika, epiqrafika və numizmatika sahələrinə nə qədər böyük qayğı və diqqətlə yanaşılmasının bariz nümunəsidir.

### *Şahbuz Dövlət Təbiət Qoruğu*

Yolumuz Şahbuz rayonunadır. Avtomobil ayna kimi düz asfalt yolda sürətlə irəliləyir. Naxçıvanın sərt, qeyri-adi dağlıq relyefi, maqmatik proseslərin müxtəlifliyi və mərhələli təzahürləri, kalder quruluşların törəmələri, vulkanogen təbəqələr getdikcə arxada qalır. Dağlara qalxdıqca bitki örtüyü dəyişir, subalp və alp çəmənlikləri başlayır. Arid iqlim şəraiti, nival-allüvial relyef, dağ-çəmən landşaftı heyrətamiz ovqat yaradır.

Şahbuz Dövlət Təbiət Qoruğu ətraf mühitin mühafizəsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunub saxlanması, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin inkişaf etdirilməsi məqsədilə görkəmli dövlət xadimi Heydər Əliyevin 16 iyun 2003-cü il tarixli Sərəncamı ilə yaradılmışdır. Qeyd edək ki, həmin sərəncama uyğun olaraq, həmçinin 12131 hektar sahədə Ordubad Milli Parkı yaradılmış və ona görkəmli təbiətşünas-alim, ictimai xadim, akademik Həsən Əliyevin adı verilmişdir.

Şahbuz Dövlət Təbiət Qoruğu dəniz səviyyəsindən 2200-2400 metr hündürlükdə dağlıq sahələri, Batabat gölü və Biçənək aşırımı ərazisini əhatə edir. Dərələyəz silsiləsinin cənubu və Zəngəzur silsiləsinin qərb yamacı, məşhur Qanel gölü bu qoruğa daxildir. Əsrarəngiz gözəlliyə malik bu ərazidə 2899 bitki növünün yayılması faunanın da zənginliyinə təsir göstərmişdir. Faunistik kompleks 285 növü əhatə edir.

Relyef, bitki və torpaq örtüyünün müxtəlifliyi təbii landşaft sahələrini ayırmağa imkan verir. Qoruğun su ehtiyatları atmosfer çöküntüləri hesabına formalaşan mineral bulaqlardan ibarətdir. Ərazi Zorbulaq, Südlübulaq kimi şirin sulu, Narzan tipli mineral bulaqları ilə məşhurdur. Eyniadlı üç göldən ibarət Batabat su anbarının ümumi su tutumu 3 milyon kubmetrdir. İkinci Batabat gölü üzərində əmələ gəlmiş torf qatı saysız-hesabsız çiçəklər və çəmənliklə örtülüb. İki metr qalınlığa malik torf qatı küləyin əsdiyi istiqamətdə aramla üzdüyündən ona "Üzən ada" adı verilib. Sahilə yan alan adanın üzərinə maşın belə çıxsa, qorxusu yoxdur.

Qoruğun meşə örtüyü zəngindir. Qocaman palıdlar, ətrafa xoş ətir saçan ardıc, yemişan, alma, armud, alça, vən, acı badam ağacları, müxtəlif kol bitkiləri təkrarolunmaz gözəllik bəxş edir bu yerlərə. Təbiət heç nəyi əsirgəməyib Şahbuzdan. Qalan şey insandan asılıdır. Bu gözəlliyə, bu sərvətə sahib çıxıb xarici ölkələrdən turist axınını bura cəlb etmək heç də çətin deyil. Dağların sinəsində qərar tutan Ağbulaq İstirahət Mərkəzində yaradılan şərait dünyanın tanınmış turizm mərkəzlərindəki şəraitdən heç də geri qalmır.

Təbiəti ilə gözoxşayan, heyrət doğuran, dağ-çəmən havası və iqlimi ilə könülləri sehrləyən, buz bulaqları ilə qəlblərə sərinlik gətirən, gülərüz, işgüzar, saf və sağlam əqidəli insanları ilə hamıya, hər kəsə nümunə olan, Naxçıvan, səni çox sevdik. Sən işgüzarlıq, intellektuallıq, müasirlik, vətənpərvərlik nümunəsi kimi qəlbimizdə silinməz izlər buraxdın!

Sosial-iqtisadi inkişaf sahəsində qazanılan böyük uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu və bütün naxçıvanlıları Naxçıvanda səfərdə olan media qrupumuz adından təbrik edir, ən xoş arzularımızı bildiririk.

**Həsən HƏSƏNOV**
*"Xalq qəzeti"nin baş redaktoru*
*6 iyul 2017-ci il*

## Açıq səma altında nümayiş olunan daş yaddaşımız

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyul tarixli Sərəncamına əsasən Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında Açıq Səma Altında Muzey yaradılmışdır. Ali Məclis Sədrinin Sərəncamında deyilir:* ***“Müasir tarixşünaslığın tələbləri baxımından tədqiqini gözləyən sahələrdən biri də azərbaycanlıların yaşadıqları ərazilərdə geniş yayılmış qədim qoç heykəlləri, qəbirüstü abidələri və daş üzərində oymalardır. Qoç heykəlləri, qəbirüstü abidələr, daş üzərində oymalar azərbaycanlılarda ən qədim mifoloji və dini baxışlarla bağlı olmuşdur. Bunlar xalqımızın qədim mədəniyyətindən nümunələr olmaqla bərabər, eyni zamanda estetik təsir bağışlayan sənət əsərləridir”.***



Ən qədim insan yaşayış məskənlərindən olan Naxçıvanda sənətkarlıq və mədəniyyət də böyük inkişaf yolu keçmişdir. Bu torpağın hər qarışı tarixin müəyyən dövründən soraq verir, əcdadlarımızın həyat tərzi və yaşayışı haqqında dolğun təəssürat yaradır. Zəngin tarixi-mədəni irsimiz təkcə memarlıq abidələrində deyil, həm də daş abidələrdə yaşayır. Əcdadlarımızın yaratdıqları daş abidələr, xüsusilə Gəmiqaya rəsmləri, ümumilikdə, bəşəriyyətin tarixindən xəbər verən dəyərli qaynaqlardır.

Gülüstan və Türkmənçay müqavilələrindən sonra Naxçıvana köçürülmüş ermənilərin qədim Azərbaycan torpağını “erməniləşdirmək” sahəsində apardıqları siyasətin bir istiqaməti də daşdan yonulmuş mədəniyyət nümunələrinin dağıdılması olmuşdur. Bu mənada Ali Məclis Sədrinin Sərəncamı ilə yaradılan Açıq Səma Altında Muzey xalqımızın dekorativ-tətbiqi sənətinin ən gözəl nümunələrindən olan daşdan yonulmuş mədəniyyət nümunələrinin mühafizəsi, öyrənilməsi və təbliği sahəsində mühüm elmi əhəmiyyətə malikdir. Bu mədəniyyət ocağının ekspozisiyası son 15 ildə xeyli zənginləşmiş, muzeyi minlərlə tamaşaçı ziyarət etmişdir. Muzeyin ekspozisiyasında mifoloji və dini dünyagörüşlə əlaqədar olan 226 qoç heykəli, daş kitabə, qəbirüstü abidə, daşla bağlı məişət əşyaları qorunur və nümayiş etdirilir.

Bəşər tarixində daş əmək alətləri, daş heykəllər, daş epiqrafik yazılar, piktoqrafik yazı nümunələrinin daş üzərində həkk edilməsinin tarixi çox qədimlərə dayanır. Açıq Səma Altında Muzeyin ən qədim eksponatı da eramızdan əvvəl IV-III minilliyə aid Gəmiqayadan gətirilmiş daş abidədir.

Naxçıvanın orta əsr memarlıq və tikinti sahəsində kərpic daha çox işlənsə də, daşdan istifadə, daş üzərində yazı ornamentlərinin yaradılması üçün sənətkar və ustaların məharətli işlərinə də rast gəlinir. Bu illər ərzində bu nümunələrin muzeyə gətirilib, ərazinin bu eksponatlarla zənginləşdirilməsi də əsas vəzifələrdən olmuşdur.

Muzeyin əsas eksponatlarını daşdan yonulmuş qoç fiqurları təşkil edir. Qədim türk xalqlarının inamları və dəfn adətləri ilə bağlı olan daş qoç və qoyun heykəlləri ilk öncə dəfn olunanların yanına qoyulmuş, zaman keçdikcə bu adət tədricən qəbirlərin üstünə qoyulan heykəllərlə əvəz edilmişdir. İslam dininin qəbulundan sonra bu adət müvəqqəti unudulmuş, XIV əsrdən başlayaraq və tədricən XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu tayfalarının Azərbaycanda hakimiyyəti zamanı yenidən dirçəlmişdir. Həmin dövrdən etibarən Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da qəbirlərin üstünə daş qoç və qoyun heykəlləri qoyulmuşdur. Əksər qoç fiqurlarının üzərində qılınc təsvir edilməsi xalqımızın döyüşkən və qəhrəmanlıq tarixindən xəbər verir.

Muzeydə çoxlu sənduqələr, qəbirdaşları qorunub saxlanılır. Qəbirdaşları üzərində mərhumun peşə və sənətini əks etdirən bir sıra məişət və təsərrüfat əşyaları, güzgü, qayçı, xəncər təsvirinə rast gəlinir. Sənət əsərlərində günəşin də təsvirinə tez-tez rast gəlinir. Günəş istilik, həyat, işıq rəmzi olduğundan daşyonma ustaları da daş üzərində müxtəlif formada dairələr həkk etmişlər. Qəbirüstü abidələr orta əsrlərdə Naxçıvanda daşişləmə sənətinin intibah dövrü keçirdiyini sübut edir. Sənduqələr – sinədaşları kiçik formalı memarlıq əsərləridir. Sənduqələrin üzəri “Qurani-Kərim”dən götürülmüş ayələrdən ibarət kitabələrlə bəzədilmişdir.

Eksponatlar arasında memorial xatirə abidələri mühüm yer tutur. Onlardan biri də burada nümayiş olunan ən qədim qəbirüstü xatirə abidəsidir. Qəbilə quruluşu dövrünün məhsulu olan bu abidə qəbir üzərində dik basdırılmış heykələ bənzəyir.

Naxçıvan müxtəlif tərkibli və keyfiyyətli daş ehtiyatları ilə zəngindir. Muzeydə nümayiş etdirilən sütun altlıqları da formalarına görə müxtəlifdir. Orta əsrlərdə sütun altlıqları darvaza qapılarının yanında bəzək əşyası kimi istifadə edilmişdir. Daş məmulatı təkcə tikinti materialı kimi deyil, həmçinin təsərrüfat və məişətdə də geniş tətbiq olunmuşdur. Muzeydə nümayiş olunan sudaşı, xırmandaşı, dəyirmandaşı, dibəkdaşı vaxtilə məişətimizdə geniş yer tutmuşdur.

Vaxtilə baxımsız, tarixə laqeydlik təəssüratı yaradan bu ərazi indi tarix və mədəniyyətimizə məhəbbətin ifadəsi olan “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi kimi fəaliyyət göstərir. Hər il muzeyi minlərlə tamaşaçı, xüsusilə xarici ölkə vətəndaşları ziyarət edir. Bu isə zəngin tarixi-mədəni irsimizin təbliği və tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Beynəlxalq konfransın iştirakçıları Naxçıvandan zəngin təəssüratla ayrılıblar

***Xəbər verdiyimiz kimi, iyulun 7-8-də “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” mövzusunda beynəlxalq konfrans keçirilib. Plenar və bölmə iclaslarından sonra konfrans iştirakçıları muxtar respublikanın türk-islam mədəniyyətini özündə əks etdirən abidələrlə tanış olublar. Səfər müddətində Naxçıvanın türk-islam mədəniyyəti ilə yaxından tanış olan konfrans iştirakçıları öz təəssüratlarını “Şərq qapısı” qəzetinin oxucuları ilə də bölüşüblər.***



***Nailə VƏLİXANLI – Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik:*** – Naxçıvan təkcə Azərbaycanın deyil, dünyanın ən qədim mədəniyyət ocaqlarından biridir. Muxtar respublikada türk-islam mədəniyyətinin izlərini özündə yaşadan çox əhəmiyyətli abidələr var. İstər İslamdan əvvəl, istərsə də sonrakı dövrlərdə burada yaradılmış abidələr Naxçıvanın tarixini, zəngin mədəniyyətini özündə əks etdirir. Bu abidələr tarixin çətin sınaqlarından keçərək bu günümüzədək gəlib çatıb. Bu gün isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə belə abidələrimiz yenidən bərpa olunub, onlara ikinci nəfəs verilib. Bu abidələrin varlığı onu göstərir ki, Naxçıvan qədim türk yurdudur və yerli əhali əsrlərboyu burada yaşayaraq özünün tarixini, əvəzolunmaz mədəniyyətini yaradıb. Bu baxımdan Naxçıvanın İslam mədəniyyətinin paytaxtı kimi 2018-ci ildə öz tarixini, mədəni zənginliyini təbliğ etmək üçün geniş imkanları yaranacaq və inanırıq ki, bu zənginliklə bütün İslam dünyası tanış olacaq.



***Hüseyn YURTTAŞ – Ərzurum Universitetinin Sənətşünaslıq kafedrasının müdiri, professor:*** – Naxçıvanın bir çox bölgələrində olan tarixi-memarlıq abidələri türk-islam mədəniyyəti abidələri tarixində öz əhəmiyyəti ilə seçilən tikililərdir və Naxçıvanın tarixini, mədəni zənginliyini göstərir. Tarix sübut edir ki, Naxçıvanın coğrafiyası böyük bir mədəniyyətə sahib olub. Bu mədəniyyəti günümüzə daşıyan məhz belə abidələrdir. Sevinirəm, eyni zamanda qürur duyuram ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu tarixin yaşadılması, gələcək nəsillərə ötürülməsi üçün çox böyük işlər görür. Son illərdə Naxçıvanda xeyli sayda tarixi tikililər bərpa olunub, Naxçıvanın tarixi ilə bağlı müxtəlif beynəlxalq konfranslar keçirilir. Onu da qeyd edim ki, mən bundan əvvəl 2012-ci ildə Naxçıvanda olmuşdum. Aradan elə bir uzun dövr keçməyib. Ancaq inanın ki, bu qısa dövr ərzində Naxçıvan daha da dəyişib, gözəlləşib. İnkişafı, dirçəlişi hər yerdə görmək mümkündür. Bu, məni çox sevindirir.





***Bəhram ACARLI – Təbriz Sənət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru:*** – Azərbaycan orta əsrlər dövründə İslam dünyasının ən zəngin və parlaq memarlıq nümunələrini yaradıb. Memar Əcəmi Naxçıvaninin müəllifliyi ilə yaradılmış abidələrdə biz bunun gerçək nümunəsini görürük. Ümumiyyətlə, Naxçıvan çox zəngin tarixə və mədəniyyətə malik bir diyardır. Burada olduğumuz müddətdə tarixi abidələrlə tanışlığımız zamanı gördüklərimiz, eyni zamanda konfransda edilən çıxışlar bunu bir daha sübut etdi. Qeyd etməyi vacib bilirəm ki, Naxçıvanda tarixə böyük sevgi, məhəbbət var. Buradakı tarixi abidələrin bərpası sahəsində böyük işlər görülüb. Ümumiyyətlə isə Naxçıvandakı qədimlik və müasirlik, abadlıq və səliqə-sahman deməyə əsas verir ki, Naxçıvan İslam dünyasında fərqli bir yerə sahibdir.

**✍ Səbuhi HƏSƏNOV**

## Tələbələr Ağbulaq İstirahət Mərkəzində olublar

İyul ayının 7-9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, “Naxçıvan” Universiteti, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin iştirakı ilə Ağbulaq İstirahət Mərkəzində gənclərin “Yay məktəbi” təşkil olunub.

Naxçıvan şəhərindən Ağbulaq İstirahət Mərkəzinə yola düşən gənclər əvvəlcə mərkəz ilə tanış olublar. Burada ilk gün ərzində gənclər stolüstü idman oyunları oynayıb, onlar arasında “Nuh yurdu” intellektual oyunu keçirilib.

“Yay məktəbi”nin ikinci günü gənclər səhər gimnastikası ilə məşğul olub, iştirakçılar arasında müxtəlif idman oyunları keçirilib, onların Ağbulaq kəndi ərazisinə gəzintisi təşkil edilib. Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin kollektivi konsert proqramı ilə çıxış edib. Sonuncu gün isə gənclərin Şahbuz Dövlət Təbiət Qoruğuna gəzintisi təşkil olunub, gəzintilər zamanı çəkilmiş fotoşəkillərin müsabiqəsi keçirilib. Fərqlənən fotoşəkillərin müəllifləri, həmçinin “Nuh yurdu” intellektual oyununda və “Yay məktəbi”ndə fəal iştirak edən gənclər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin fəxri fərmanları ilə təltif olunublar.

Günün sonunda gənclər Naxçıvan şəhərinə yola düşüblər. Budəfəki “Yay məktəbi”ndə “Naxçıvan” Universitetinin 60 tələbəsi iştirak edib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 10 iyul 2017-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4 144 | 1 727 | 5 489 | 31,8 |
| 2. | Babək rayonu | 10 420 | 5 860 | 17 906 | 30,6 |
| 3. | Ordubad rayonu | 1 671 | 1 204 | 3 293 | 27,4 |
| 4. | Culfa rayonu | 6 048 | 2 244 | 6 603 | 29,4 |
| 5. | Kəngərli rayonu | 4 364 | 2 543 | 7 131 | 28,0 |
| 6. | Şahbuz rayonu | 1 591 | 46 | 125 | 27,2 |
| 7. | Sədərək rayonu | 2 440 | 646 | 2 054 | 31,8 |
| 8. | Naxçıvan şəhəri | 954 | 310 | 865 | 27,9 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **31 632** | **14 580** | **43 466** | **29,8** |

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 553